# İdman xəbərləri

## «Qəbələ»dən səfər qələbəsi

Noyabrın 24-də "Qəbələ" səfərdə "Keşlə" ilə qarşılaşıb.

Qarşılıqlı hücumlarla başlayan matçın 17-ci dəqiqəsində hesab açılıb. Ceyms Adeniyi yaxın məsafədən vurduğu zərbə ilə hesabı açıb. Hesab açıldıqdan 3 dəqiqə sonra "Qəbələ" fərqi artırıb. Təmkin Xəlilzadənin sağ cinahdan yerinə yetirdiyi cərimə zərbəsindən sonra Vojislav Stankoviç başla dəqiq zərbə endirib.

"Keşlə"nin heyətində isə Amil Yunanov fərqlənib.

Beləliklə, mövsümdə 1:2 hesabı ilə ilk səfər qələbəsini qazanan "Qəbələ" paytaxtdan 3 xalla dönüb.

## U-16-dan 5, U-14-dən 8 qol

"Qəbələ" Futbol Akademiyasının komandaları növbəti oyunlarını keçiriblər. AFFA-nın təşkil etdiyi liqalarda baş tutan qarşılaşmalarda təmsilçilərimiz 8 qələbə qazanıb, 1 heç-heçə edib. Yeganə məğlubiyyət isə komandalarımızın öz aralarındakı görüşündə qeydə alınıb.

"Neftçi" İK ilə Bakcell U-17 Liqasının matçında komandamız 3:1 hesablı ev qələbəsi qazanıb. U-16 Liqasında eyni klubun qonağı olan "qırmızı-qaralar" 5 cavabsız qolla qalib gəlib.

Boulevard Hotel U-15 Liqasında "Qəbələ" öz meydanında "Neftçi" PFK ilə heç-heçə edib - 0:0.

Kapital Bank U-14 Liqasının paytaxt zonasında "Xəzri" ilə görüşən "qırmızı-qaralar" 8:0 hesablı qələbə ilə aktivinə 3 xal yazıb.

Coca-Cola U-13 Liqasının eyni zonasında isə komandamız "Məqsəd Kursları"nın qapısından 7 cavabsız qol keçirib.

U-12 Liqasında "Qəbələ" UGİM-ə (Ağdaş) 10:0, UGİM "Qəbələ" isə UGİM-ə (İsmayıllı) 2:0 hesabı ilə qalib gəlib.

U-11 Liqasında "qırmızı-qaralar" UGİM-i (İsmayıllı) 6 cavabsız qolla məğlub edib.

U-10 Liqasında mübarizə aparan "Qəbələ" və UGİM "Qəbələ" arasında dueldə birincilər 2 cavabsız qolla qələbə qazanıb.

# Günəş fırtınası bəşəriyyət üçün təhlükə mənbəyidir

Alimlər xəbərdarlıq edirlər ki, şiddətli Günəş fırtınası Yerdə rabitə sistemini sıradan çıxara və çox böyük iqtisadi zərərə səbəb ola bilər.

Tədqiqatçılar 1972-ci ildə amerikan hərbçilərinin Vyetnam sahillərində quraşdırdığı sualtı minaların öz-özünə partlamasının səbəbini araşdırıblar. Məlum olub ki, detonatorların avtomatik işə düşməsi Günəş fırtınasının təsiri ilə baş verib. Meteoroloqlar həmin gün eyni saatda şiddətli Günəş fırtınası və maqnit sahəsi qeydə alıblar. Alimlər bu hadisə ilə bağlı əlavə ediblər ki, müasir dövrdə Günəşdə bu cür şiddətli alışma daha ciddi fəsadlar törədə - günümüzdə insanların istifadə etdikləri peyk qəbuledicilərini, enerji şəbəkələrini və bir çox obyektləri sıradan çıxara bilər.

Günəş fırtınalarının səbəbinə gəldikdə, alimlər bildirirlər ki, bu, nəhəng ulduzun tərkibində olan eklektikləşmiş qazların (əsasən hidrogenin) yaratdığı maqnit sahəsində olan enerjinin yerdəyişməsi ilə əlaqədardır. Bir sözlə, bu hadisə enerjinin partlayış yolu ilə Günəş atmosferinə yayılmasıdır. Hər bir fırtına zamanı dünyada olan bütün nüvə arsenalından 100 min dəfə çox enerji hasil olunur. Sonsuz fəzaya yayılan bu fırtınanın birbaşa Yerə yönəlməsi və planetimizin maqnit sahəsi ilə birləşməsi isə atmosferin yüksək qatlarında atomların və molekulların fəallaşması və qütb parıltısına səbəb olur. Bu proses, eyni zamanda, Yerin maqnit sahəsinin də deformasiyaya uğradır.

Alimlər Günəş fırtınalarının proqnozlaşdırılması yollarını da izah ediblər. Onların fikrincə, Yerin maqnit sahəsinin öyrənilməsi XIX əsrin ortalarında başlayıb və tədqiqatlar nəticəsində kosmosda 100 ildə bir ekstremal "hava şəraitinin" müşahidə edildiyi məlum olub. "Kerrinqton hadisəsi" adlanan ən şiddətli geomaqnit fırtınası 1859-cu ildə qeydə alınıb. Həmin il avqustun 28-dən sentyabrın 2-dək Günəşdə çoxlu sayda ləkələr və alışmalar görünüb. Bütün dünyada, hətta Karib dənizi üzərində də qütb parıltısı baş verib, Avropada və Şimali Amerikada teleqraf sistemləri iflic olub.

Alimlərə görə, müasir dövrdə - bəşəriyyətin yüksək texnologiyalardan asılı olduğu bir şəraitdə, kosmosdakı peyklərin qlobal rabitə və naviqasiya sistemini idarə etdiyi vəziyyətdə analoji fırtınanın fəsadlarını təsəvvür etmək belə çətindir. Kosmik gəmilərin və təyyarələrin, enerji sistemlərinin sıradan çıxması ağır fəsadlarla nəticələnə bilər. Hazırda meteoroloqlar və astronomlar bu problem üzərində iş aparırlar. İndi alimlər Günəş fırtınasını 6 saat əvvəl proqnozlaşdıra bilir.

# Dünya əhalisinin və dillərin sayı

Hazırda dünyanın 260 ölkəsində 7,5 milyarddan çox insan yaşayır. Onlar ünsiyyət vasitəsi kimi 7 minə yaxın dildən istifadə edirlər. 40-a yaxın ən çox yayılmış dil dünya əhalisinin 2/3 -ni əhatə edir. Dünyadakı dillərdən yalnız 95-i dövlət dili statusuna malikdir.

Bəzi dillər bir neçə dövlətin rəsmi dili kimi qəbul edilib. O cümlədən ingilis dili 56, fransız dili 29, ərəb dili 24, ispan dili 20, portigiz dili 8, alman dili 6, italyan və rus dilləri hər biri 4, holland və serb dilləri hər biri 3 ölkənin dövlət dili statusuna malikdir. Daha 12 dilin hər biri iki ölkənin rəsmi dilidir. Eyni zamanda, iki və daha artıq dövlət dili olan ölkələr də vardır.

# Turizmin sürətlə inkişaf etdiyi ölkələr



Polşanın turizmlə bağlı "TTG" biznes qəzetində dünyanın bu istiqamətdə sürətlə inkişaf edən 10 ölkəsi barədə məlumat dərc olunub. Məlumat verilib ki, ilk onluğa daxil olan Azərbaycanda turizmin inkişafı son bir ildə 20 faiz artıb.

AZƏRTAC xəbər verir ki, Dünya Turizm Təşkilatının hesablamalarına əsasən, "Bloomberg" agentliyinin hazırladığı məlumatlarda Azərbaycana 10 ay ərzində 2 milyon 420,4 min turistin gəldiyi bildirilir.

# Dörd min yaşlı daş lövhələr tapılıb

Misirin Qədim Abidələr Nazirliyi ekspedisiyasının arxeoloqları üzərində heroqlif yazılar olan qədim daş lövhə aşkar ediblər. Onların bəzisinin yaşı təqribən 4 min ildir.

Daş lövhələr Qahirənin şərqindəki Matariya rayonunda qazıntılar zamanı tapılıb. Onların üzərindəki yazılar müxtəlif dövrlərə aiddir. Mütəxəssislər yazıların kodlarını açmağa başlayıblar. Alimlərin məlumatına görə, onlardan biri çox mühüm və adı tez-tez xatırlanan ilk tanrıya–Atuma işarə edir. Misirlilər eramızdan əvvəl 664-332-ci illər dövründə Nil çayının tez-tez daşaraq insanlara fəlakət gətirməsini bu tanrının adı ilə bağlayırmışlar.

# Bilirsinizmi?

Arılar insanların əhliləşdirdiyi ilk və yeganə həşəratdır.

Təmiz arı balı 4 əsr qalır, xarab olmur.

Ana arı bir gündə 1500-2000, bir ildə 100 min, bütün ömrü boyu 8 milyona qədər yumurta qoya bilir.

Arı bir gündə 200 hektardan çox sahə gəzir, 100 qram bal toplamaq üçün 1 milyon çiçəkdən şirə götürür.

Alimlər müəyyən ediblər ki, şirə toplayıb qayıdan arılar havada müxtəlif fiqurlar cızaraq tapdıqları çiçəklərin yerini başqa arılara bildirirlər.

Bal iylənmə prosesinin qarşısını alır. Qədim romalılar əti bal ilə konservləşdirərək uzun müddət saxlaya biliblər.


«QƏBƏLƏ» qəzetinin reklam xidməti

205-19-14, 205-15-56


# İTMİŞDİR

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 25 iyun 1998-ci il tarixli 11 nömrəli qərarı ilə Yemişanlı kənd sakini **Bəşirov Ramiz Məmməd oğluna və ailə üzvlərinə** verilmiş JN seriyalı 0074 nömrəli (kod 40615048) **torpağa mülkiyyət hüququna dair dövlət aktı** itdiyi üçün etibarsız sayılır.

Qəmərvan Bələdiyyəsinin 27 iyun 2006-cı il tarixli 08 saylı iclas protokolunun çıxarışına əsasən **Məsimov Ələsgər Xancan oğluna** həmin bələdiyyə tərəfindən **0,12 hektar torpaq sahəsinin satılmasına dair verilmiş qərar**, 03 iyul 2006-cı il tarixli (qeydiyyat nömrəsi 114) **torpağın alqı-satqısına dair akt və alqı-satqı əsasında ayrılmış torpaq sahəsinin yerquruluşu planı** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 15 dekabr 1997-ci il tarixli 27 saylı qərarı ilə Soltannuxa-2 kənd sakini **Mahmudov Tərlan Sədiyar oğluna və ailə üzvlərinə** verilmiş JN seriyalı 149 H nömrəli (kod 40602038) **torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsfız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 15 dekabr 1997-ci il tarixli 27 saylı qərarı ilə Soltannuxa-2 kənd sakini **Mahmudov Tərlan Sədiyar oğluna və ailə üzvlərinə** verilmiş JN seriyalı 149 G nömrəli (kod 40602038) **torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçüh etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 10 iyun 1998-ci il tarixli 11 saylı qərarı ilə Soltannuxa kənd sakini **Mahmudov Tərlan Sədiyar oğluna və ailə üzvlərinə** verilmiş JN seriyalı 149 nömrəli (kod 40602038) **torpağa mülkiyyət hüququna dair dövlət aktı** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 07 noyabr 1997-ci il tarixli 19 saylı qərarı ilə Böyük Əmili kənd sakini **Kərimov Süleyman Nurəddin oğluna və ailə üzvlərinə** verilmiş JN seriyalı 271 F nömrəli (kod 40604028) **torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.


QƏBƏLƏ

Qəbələ rayonunun ictimai-siyasi qəzeti

qəzetinə

2019-cu ilin birinci yarısı üçün abunə yazılışı davam edir

Yarımillik abunə qiyməti 15 manatdır.

*Qəzetimizə «Kapitalbank»ın Qəbələ filialında abunə yazılmaq olar.*

*Hesab № AZ36AİİB 33080019444900218149. VÖEN 4400103601.*

Redaksiyanın ünvanı: Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56 (rayon icra hakimiyyətinin inzibati binası, I mərtəbə).

Telefonlar: (024)205-19-14, (024)205-15-56, mob. (050) 671-06-94.


## ALLAH RƏHMƏT ELƏSİN!

Emin Baratoğlu **Oruc Zeynalova, Əlövsət** və **Ramazan Aləmmədovlara** əzizləri

**ELŞADIN**

vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir və kədərlərinə şərik olur.


Redaktor Varis Yaqubov.

*TƏSİSÇİLƏR:* Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.

*Redaksiya ilə müəllifin mövqeyi fərqli ola bilər*

*Məsul katib Qüdrət Səmədov.*

ÜNVANIMIZ: AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226. Redaktor: (024) 205-19-14. Ümumi: (024) 205-15-56. e-mail: news@qebele-ih.gov.az

Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeydən keçmişdir. Lisenziya AV № 022611

«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149 VÖEN: 4400103601

«Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «Azərmedia» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.

*Dizayner Rais Rəşidov*

Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.

*Tiraj 1847*